Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü

**23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2020**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü:** Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. -Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 32 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

***Ölkəmiz qədim dövrlərdən başlayaraq, öz yüksək kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır.***

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının prezidenti*

Aqillər kitabı bilik, zəka, idrak mənbəyi, kamillik vasitəsi hesab edirlər. Bu, səbəbsiz deyil. Çünki insanlar ən yüksək keyfiyyətləri, əsl təhsili yalnız mütaliə etməklə qazanırlar. Kitab oxumaq insanın ruhunu qidalandıran, daxilindəki mənəvi boşluğu dolduran çox əhəmiyyətli bir vasitədir. Kitab bir nəslin o biri nəslə qoyub getdiyi mənəvi vəsiyyətdir. Böyük şəxsiyyətlərin həyatlarına nəzər yetirdikdə, onların hərtərəfli inkişafında mütaliənin əhəmiyyətli rol oynadığını aydın şəkildə görmək mümkündür. Bütün istiqamətlərdə inkişafın ancaq elmi əsaslarla mümkün olduğu müasir dövrdə hər kəsi düşündürən məsələlərdən biri də cəmiyyətimizdə mütaliə mədəniyyətinin inkişaf səviyyəsidir.

Mənəvi həyatımızın tarixi ən qədim dövrlərdən başlayaraq kitabla sıx bağlı olub və məhz onun ehtiyacları müqabilində kitab yeni-yeni formalara düşərək təkmilləşib, formalaşıb. Daş kitabələr, gil lövhələr, papiruslar, perqamentlər, yeni müasir kitabların ulu əcdadları, antik dünya mədəniyyətinin mənəvi sərvətidir.

Bəs bu gün zülmət qəlblərə nur çiləyən kitaba, onların qorunub saxlandığı kitabxanalara, bütövlükdə mütaliəyə münasibət necədir?..

Kitablar sivilizasiyanın nümunəsidir. Kitabsız ədəbiyyat, tarix itər. Həyati incəliklər olan lirika, psixoloji və elmi biliklər mənasız olar.

Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı, dünya və insanlıq sevgisiylə dolduracaq. Kitab

insan ruhunun müqəddəs yazısıdır. Kitabı sevin, çünki o sizə insanları sevməyi öyrədəcək və fikirlərinizi aydınlaşdırmaqda köməkçi olacaq. Deyirlər ki, başqa əsrlərin yazıçıları ilə söhbət etmək, səyahət etməyə bərabərdir.

Bu gün 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günüdür. Bu gün bu uğurlu yolun ildönümüdür. Bu yubiley münasibətilə vəsait işləməyi özümüzə borc bildik. Böyük fəxarət hissi ilə yazdığımız bu vəsait "Giriş" və "Keçiriləcək tədbirlər" adlanan hissələrdən ibarətdir. I hissədə bu günün yaranma tarixindən bəhs edilir. II hissədə isə bu günlə bağlı kitabxanalarda təşkil olunan tədbirlərdən söhbət açılır.

## Giriş

Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün qeyd edilməsi kitablardan və mütaliədən zövq almağı təşviq edir. Keçmişlə gələcək arasında əlaqə, nəsillər və mədəniyyətlər arasında bir körpü olan kitabın sehirli gücünü tanımaq üçün hər il 23 Aprel tarixində bütün dünyada tədbirlər keçirilir. Bu münasibətlə UNESCO və kitab sənayesinin üç əsas sektorunu– naşirləri, kitab ticarətçilərini və kitabxanaları təmsil edən beynəlxalq təşkilatlar növbəti ilin 23 Aprel tarixinədək Günün qeyd edilməsini öz təşəbbüsləri vasitəsilə təmin etmək üçün şəhərlərdən birini Ümumdünya Kitab Paytaxtı kimi seçirlər.

23 Aprel – dünya ədəbiyyatında simvolik tarixdir. Uilyam Şekspir, Migel Servantes və İnka Qarsilaso dela Veqa kimi bir sıra görkəmli müəlliflərin vəfat etdiyi gündür. Bu tarix kitablara və müəlliflərə dünya miqyasında ehtiram göstərmək, hər kəsi bəşəriyyətin məkan və zaman sərhədlərini aşaraq ideyaları paylaşmaq üçün ən gözəl ixtira, həmçinin yoxsulluğun aradan qaldırılması və sülhün bərqərar edilməsinin başlıca qüvvəsi olan – kitabları əldə etməyə təşviq etmək məqsədi ilə 1995-ci ildə Parisdə keçirilmiş UNESCO-nun Baş Konfransının təbii seçimi idi.

UNESKO öz fəaliyyəti dairəsində kitabları və müəlliflik hüququnu təşviq edərək - "Ədəbiyyatın Kreativ Şəhərləri" şəbəkəsindən tutmuş savadlılığın təşviqinə, mobil tədrisə, elmi biliklər və təhsil resurslarına açıq girişin təkmilləşdirilməsinədək – yaradıcılığı, müxtəlifliliyi və biliklərə bərabər səviyyədə əlçatımlığı dəstəkləyir.

Müəlliflər, naşirlər, müəllimlər, kitabxanaçılar, ictimai və özəl müəssisələr, humanitar QHT-lər və KİV-lərin, həmçinin birlikdə işləmək həvəsi olan bütün maraqlı tərəflərin də aktiv şəkildə cəlb olunması ilə Ümumdünya Kitab və Müəlliflik

Hüququ Günü dünyanın hər yerində milyonlarla insanı bir araya gətirən platformaya çevrilib. Hər il UNESCO-nun Baş qərargahında böyük bayram tədbiri keçirilir. Kitab ticarətçiləri, nəşriyyat şirkətləri və rəssamlar kitablara və mütaliəyə olan sevgilərini gənclərə praktik seminarlar keçirmək vasitəsilə (mətbəə, illüstrasiya, kitab cildlənməsi, manqa stili və s.) bölüşmək üçün dəvət olunur.

23 Aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" YUNESCO-nun 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında elan edilmişdir.

Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün elan edilməsi barədə qərarda mədəni ənənələrin inkişafı və dərk edilməsi, həmçinin biliklərin yayılması və qorunması üçün kitabların və maarifləndirmənin ən böyük vasitə və ən etibarlı üsul olması vurğulanır, müəlliflərin cəmiyyətdəki xüsusi rolu qeyd olunur və bununla müəlliflik hüququ institutunun dəstəklənməsi göstərilir.

Azərbaycan Respublikasında 23 Aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" 1997-cı ildən qeyd olunur.

23 Aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" nün ölkəmizdə təntənəli şəkildə qeyd olunması artıq ənənəyə çevrilmişdir və bu münasibətlə hər il Müəllif Hüquqları Agentliyinin təşəbbüsü ilə silsilə tədbirlər təşkil edilir. Belə tədbirlərin keçirilməsində məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətini vurğulamaq, müəlliflik hüququnun mədəni irsin yaranmasında və qorunub saxlanmasındakı rolunu göstərmək və davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı əhəmiyyətini diqqətə çatdırmaq, əqli mülkiyyətin yaradıcılarına olan hörmət və ehtiramı nümayiş etdirmək, diqqəti mədəni irsin və adət-ənənələrimizin qorunub saxlanmasına yönəltməkdir.

YUNESKO-nun Baş direktoru İrina Bokova "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" ilə əlaqədar 2014-cü ildəki müraciətində kitabın əhəmiyyətindən söz açaraq qeyd etmişdir ki, "Çap edilmiş sözün tarixi - insanlığın tarixidir. Şəxsiyyətin özünü təsdiqində və sosial islahatların həyata keçirilməsində kitabın təsir imkanlarının analoqu yoxdur. Şəxsi təəssüratları əks etdirərək və eyni zamanda dərin sosial təzahür forması olaraq, kitablar insanlar arasında, cəmiyyətlər daxilində, dövrlərin dialoqunun formalarının müxtəlifliyini təmin edir".

Hər şeyin başlanğıcı insanın tükənməz təbii resurslarından irəli gələn yaradıcılığıdır, əqli fəaliyyətidir. Bu fəaliyyətin nəticələri obyektivləşərək, maddi daşıyıcıda əksini taparaq, yazıya, kitaba çevrilir. "Kitab", "Müəllif" və "Müəlliflik hüququ" anlayışları yaranan andan bir-biri ilə qırılmaz təmasda olub. "Yaradıcıdan, müəllifdən – əlyazmaya, kitaba", "əlyazmadan, kitabdan-müəlliflik hüququna"-bu üzvi əlaqələr bir tərəfdən tarixi ardıcıllığı, digər tərəfdən isə müəlliflik hüququnun yaradıcılıqdakı əhəmiyyətini göstərir. Bugünkü rəqəmli dünyanın köklü dəyişikliklərinə baxmayaraq, kitab öz əhəmiyyətini qoruyub saxlamışdır. Dahi Nizaminin "tükənməz mənəvi qida", Şekspirin "tacdan qiymətli", böyük Sabirin "ilk dostum", maarifçi-alim Zərdabinin "qiymətli dəfinə" adlandırdıqları kitab bilik mənbəyi olaraq qalmaqdadır. Dünya mədəniyyətinin inciləri sırasında Azərbaycanın "Kitabi-Dədə Qorqud" unu xüsusi qeyd etmək lazımdır.

Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış milli müəllif-hüquq sisteminin və Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 2013-cü ildə 20 ili tamam olmuşdur. Bu illər ərzində respublikamızda əqli mülkiyyət, o cümlədən qeyri-maddi mədəni irsin qorunması sahəsində qanunvericilik, idarəçilik və məhkəmə sistemləri yaradılmış,

müasir tələblər nəzərə alınmaqla təkmilləşdirilmiş və beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, oxucularla söhbət, rəsm müsabiqəsi, divar qəzeti, səhnəciklər, icmal, kompozisiya və s. keçirilə bilər.

23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününü unutmamaq və gənc nəslə, eləcə də şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Bu mövzu ilə bağlı Azərbaycanın ilk qəzet nümunələri, məqalə və kitabları, həmçinin dünya mətbuatından nümunələr sərgidə öz yerini alır. Müxtəlif ədiblərin, görkəmli şəxsiyyətlərə məxsus kəlam və materialları da sərgidə nümayiş oluna bilər. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "İnsanların kitabla bayramlaşması sevindirici haldır", "Əqli mülkiyyətin qorunması müstəsna əhəmiyyət kəsb edir", "Kitab-alternativ dünya", "Sözün tarixi – insanlığın tarixidir", "Kitablar bizim dostumuzdur" və s. vermək olar.

## Görkəmli şəxslər 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü haqqında

Kitab nəşri hər bir ölkənin, hər bir xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də, hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Yaxşı kitab çox qiymətli xəzinədir.

**H.Zərdabi,**
*maarifçi, mütəfəkkir*

Dünyada nə qədər kitab var belə
Çalışıb əlləşib gətirdim ələ
Oxudum, oxudum, sonra da vardım
Hər gizli xəznədən bir dürr çıxardım.

**N.Gəncəvi,**
*Azərbaycan şairi*

Axmaqlarla oturub-durmaqdansa, kitabla tənha oturmaq yaxşıdır.

**Q.Zakir**
*Azərbaycan şairi*

1. Əgər oxuduğumuz bir kitab bizi başımıza vurulan bir zərbə kimi sarsıtmırsa, niyə oxumağa zəhmət edək ki?
2.Əvvəllər suallarıma niyə cavab ala bilmədiyimi anlaya bilmirdim, indi isə sual soruşa biləcəyimə necə inana bildiyimi

anlaya bilmirəm. Amma gerçəkdə inanmırdım ki, soruşurdum sadəcə.
3.Qiyamət Gününü belə adlandırmamızın səbəbi ancaq bizim zaman anlayışımızdandır; əslində o bir növ hərbi vəziyyət məhkəməsidir.
4. Materialın xassəsi onda olan elektronların sayı ilə təyin olunur. Kütlənin səviyyəsi isə hər bir fərdin təfəkkür səviyyəsindən asılıdır.

**Frans Kafka,**
*Alman yahudi yazarı*

Kitabı müəllif, onun aqibətini isə cəmiyyət yaradır.

**V.Hüqo,**
*fransız yazıçı*

Kitablar bizi ötən əsrlərin varisi edir.

**N.Vəzirov,**
*azərbaycanlı yazıçı, dramaturq*

Az pulla böyük sərvət əldə etmək istəyirsənsə, – kitab al!

**Tur Xander,**
*professor*

Bir mədəniyyəti yox eləmək üçün kitabları yandırmağa gərək yoxdur. Oxumağın qarşısını alın, yetər.

**R.Bredberi,**
*Amerikan yazıçı*

Planınız 1 illikdirsə – düyü əkin, 10 illikdirsə – ağac əkin, 100 illikdirsə – insanlara təhsil verin.

*Çin atalar sözləri*

Yaxşı ki, cahillər kitab oxumurlar.
Yoxsa kitab nüfuzdan düşərdi.

**C.Rumi,**
*Türk şairi*

Hər kitab özü bir xəzinə olmaqla yanaşı, həm də neçə-neçə başqa xəzinələrə açardır..

***

Ən yaxşı kitab sənin qəlbini vərəqləyən kitabdır.

***

Ordu torpaqları, kitab könülləri fəth edir.

**Əbu Turxan,**
*professor*

Yalnız qəlbimizdəki suallara cavab verən şeyləri oxumaq lazımdır.

**L.Tolstoy**
*Rus yazıçısı*

Kitab bir nəslin digər nəslə mənəvi vəsiyyətidir.

**A.İ.Gertsen,**
*Rus yazıçısı*

Oxuyun və öyrənin. Ciddi kitablar oxuyun. Qalanını həyat edəcək.

**Volter,**
*fransız filosofu*

Əvvəllər kitabı yazıçılar yazırdılar, oxucular oxuyurdular. İndi isə kitabı oxucular yazır, amma heç kəs oxumur.

**Oskar Uayld,**
*İrland yazıçısı*

23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü ilə əlaqədar qələmə alınan, nəşr olunan kitablardan ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərgi ətrafında oxucularla söhbət keçirir. Söhbət zamanı kitablar haqqında məlumat verir, kitabların annotasiyaları oxuculara ətraflı çatdırılır.
***Kitabxanaçı:*** 23 aprel UNESCO tərəfindən elan edilən və Azərbaycanda artıq 1997-ci ildən başlayaraq ənənəvi şəkildə qeyd edilən Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür. Müəlliflik hüququnun kitab ilə təmasda olması, "Yaradıcıdan - kitaba, müəllifdən - müəlliflik hüququna" yolu heç də təsadüfi deyildir. Məşhur fransız filosofu Volterin kəlamı ilə desək, "onlar ocaqlarımızdakı oda bənzəyir: onu qonşudan götürüb, özümüzdə yandırıb, digərlərinə veririk və beləliklə, onlar hamıya məxsusdur".

Kitab və Müəlliflik Hüququ Gününü birgə qeyd etdiyimiz tədbirlərin məqsədi "bilik mənbəyi olan və yeni bilik yaradan", "bir oxunan Kitabın bəhrəsi olan yeni Kitaba yol açan" müəlliflik və müəlliflik hüququnun mədəni irsimizdəki əhəmiyyətini bir dəfə də açıqlamaq, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasında rolunu diqqətə çatdırmaq, əqli mülkiyyət yaradıcılarına hörmət və ehtiramımızı bildirmək və mədəni ənənələrimizin qorunub saxlanmasında və xüsusən erməni mənimsəmələrinə qarşı çıxmağın fəallaşmasını cəmiyyətimizin diqqətində saxlamaqdır.

Gələcəyə baxışımız kreativ və innovasiyalı cəmiyyətin formalaşması ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır".

"Dəmirə və betona əsaslanan iqtisadiyyat" ardıcıl olaraq "biliklərə əsaslanan iqtisadiyyata" çevrilir. BMT-nin 2010-cu

ilindəki hesabatında qeyd olunduğu kimi, qlobal böhran şəraitində o zamankı dünya ticarəti 12 faiz aşağı düşmüş, “kreativ”, yəni müəlliflik hüququna əsaslanan iqtisadiyyat isə 14 faiz illik artımla irəliləmişdir.

Ancaq bu gün diqqəti müəlliflik hüququnun mədəniyyətdəki roluna yönəltmək istəyirəm. Dövlətimiz mədəniyyətin inkişafına müasir nöqteyi-nəzərdən yanaşaraq, mədəni müxtəlifliyi qoruyur, mədəniyyətlərarası dialoqun təşkilatçısı qismində çıxış edir.

Mədəni müxtəliflik varsa, deməli, hamıya aid olunan mədəni, o cümlədən müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları yaşayır və inkişaf etdirilir. Mədəni kapitalın mənbəyi olan mədəni müxtəliflik tanınır və qorunub saxlanılırsa, deməli, mədəni irs zənginləşir və əqli mülkiyyətin yeniçilik və kreativlik xəzinəsi həvəsləndirilərək artır. Belə ki, yaradıcılıq və kreativlik fenomenindən irəli gələn və əqli mülkiyyətin başında duran müəlliflik hüququ bəşəriyyətin böyük dəyərlərindən biri kimi insanların müstəsna və universal, təbii resurslarından irəli gələn yaradıcılıq və yenilikçiliyi dəstəkləyir, əqli fəaliyyətin ən yüksək zirvəsinə zəmin olur, azadlıq və sərbəstlik nəticələrinin keşiyində durur.

“Qara qızılı insan kapitalına çevirmək”. Bu fikir Prezident İlham Əliyev tərəfindən kreativliyə və yenilikçiliyə verilən ən böyük dəstəkdir. Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycanın əqli mülkiyyət sahəsinin zəngin qanunvericilik bazası yaradılmış, 1996-cı ildən qüvvədə olan “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” qanuna, müasir rəqəmli mühitlə və ənənəvi biliklərin qorunması ilə bağlı əlavələr və dəyişikliklər edilmiş, Şərqi Avropa məkanında ilk qəbul olunan “Folklorun hüquqi qorunması haqqında” Qanuna əlavələr edilmişdir. Bu dəyişiklikləri həyata keçirmək üçün müəllif-hüquq sistemində müvafiq xidmət və müasir təsisatlar

yaradılır, peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı xarici ölkələrdə təlimlər keçirilir.

Kamran İmanov konfrans iştirakçılarının diqqətinə çatdırmışdır ki, Azərbaycanın müəlliflik hüququ sahəsində təcrübəsi Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) vasitəsilə təbliğ olunur, Avropa ekspertləri tərəfindən Tvinninq layihəsi çərçivəsində dəstəklənir. Lakin beynəlxalq hüquq normalarına məhəl qoymayan ermənilər bəhanələr sırasında "Qarabağın erməni xalqının" azad yaşamaq istəyini baxımsızlıq ilə "izah" etməyə çalışırlar, "millətlərin öz müqəddəratını həll etmək hüququ" ilə pərdələnirlər. Azərbaycan qanunlarını rədd edərək, əqli mülkiyyət sahəsində beynəlxalq Konvensiyaların öhdəliklərindən yan keçərək, Azərbaycan xalqının, Azərbaycan müəlliflərinin hüquqlarını pozurlar, mənimsəyib özününküləşdirirlər. Odur ki, saxtaçılıq yolu ilə, qonşularının hesabına "böyük Ermənistan" və "böyük erməni mədəniyyəti" xülyası ilə yaşayanlara məşhur ingilis fəlsəfəçisi və hüquqşünası, ideoloji liberalizmin və analitik liberal hüquq məktəbinin, utilitar fəlsəfənin banisi İeremiya Bentamın XVIII əsrdə dediyi sözləri xatırlatmaq yerinə düşərdi: "Prinsiplərə riayət etməkdən imtina edən xalqlar gec-tez gücə tabe olmalıdırlar".

Müəlliflik hüququnun bugünkü vəziyyətini xarakterizə edərkən, Azərbaycan xalqının çoxəsrlik müəlliflik hüququ ənənələrini diqqətə almamaq olmaz. Azərbaycan müəlliflik hüququnun kökləri lap qədim dövrlərə, ibtidai-təbii anonim anlayışının müəlliflik şəxsiyyəti ilə əvəz edildiyi dövrlərə gedib çıxır. 1300 illiyini bu yaxınlarda qeyd etdiyimiz "Kitabi-Dədə Qorqud" buna parlaq nümunə ola bilər, hərçənd bəzi məlumatlara görə Qorqudun təsvir etdiyi hadisələr eramızın ilk əsrlərinə aid edilir. Məhz həmin əsrlərdə genetik yaddaşımızda həkk olunan, nəsildən-nəslə ötürülən folklor

nümunələrini yazıya almaqla yanaşı, öz müəlliflərinin adlarını da qoruyub saxlayan əsərlər meydana çıxmağa başlayır. Orta əsr Azərbaycanında azərbaycanlı müəlliflər – ozan-aşıqlar müəllifliklərini əbədiləşdirməyin orijinal formasını tapdılar və bu, bütün Şərqə yayıldı. Yaradıcının əsl adı və poetik ləqəbi hökmən şeirin – nəğmənin son beytinə, “tapşırma” ya salınırdı. Müasir müəlliflik hüququ terminologiyası ilə ifadə etmiş olsaq, bu müəllifin şəxsi hüquqlarının qorunmasının aktiv forması idi. Tapşırmadan mənimsəmələr və ya onun dəyişdirilməsi adi mülki hüquqla – adətlə təqib edilirdi və plagiatçılıq edən şəxslər ictimai nifrətə məruz qalırdılar. Azərbaycanda müəllifin şəxsi hüquqlarının mühafizə olunması ənənələri və kağız istehsalının gur inkişafı sayəsində N.Tusi, Q.Təbrizi, Həbibulla Gəncəvi, Ə.Marağayi, Xaqani, M.Beyləqani, Məhsəti Gəncəvi, Nizami, Füzuli, Nəsimi və digər Azərbaycan alimləri və şairlərinin əlyazmaları orta əsrlərdən günümüzə qədər gəlib çatmışdır.

Azərbaycanın müasir, bugünkü müəlliflik hüququ kontinental və anqlo-sakson hüquq ənənələrinin, ÜƏMT-in və inkişaf etmiş ölkələrin ən yaxşı təcrübələri ilə tamamlanmış və zənginləşdirilmişdir.

Fransız yazıçısı Şatobrianın sözləri ilə desək, “hüquq borcu yox, borc hüququ doğurmuşdur”. Cəmiyyətin, dövlətin Azərbaycan alimləri, mədəniyyət xadimləri qarşısında borcu müəlliflik hüququnu kristallaşdıraraq, bugünkü səviyyəyə çatdırmışdır.

“Mədəniyyətimizin qəlbi qəlbimizin mədəniyyətindən irəli gəlir”. Bu sözləri təmsil etdiyiniz hər bir cəmiyyətə, mədəniyyətə, hər bir fərdə, hər birinizə ünvanlamaq olar.

Biz azərbaycanlılar öz mədəni müxtəlifliyimizi, mədəni, əqli mülkiyyət hüquqlarımızı və özünəməxsusluğumuzu qoruyub saxlamaqla yanaşı, eyni dərəcədə digər xalqların mədəni

müxtəlifliyinə də hörmət və ehtiram bildiririk. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxış edərkən dediyi kimi, "…əgər biz sabahı düşünürüksə, gələcək nəsillər qarşısında öz məsuliyyətimizi dərk ediriksə, biz xalqlararası millətlərarası münasibətləri məhz etika və ədalət platformasından qurmağa çalışmalıyıq".

UNESCO-nun "Mədəni müxtəliflik üzrə Universal Bəyannaməsi" nə əsasən, hər bir mədəniyyət cəmiyyətə xas olan intellektual nailiyyətlərlə yanaşı, mənəvi, maddi və emosional əlamətlər məcmusudur. Xüsusilə qeyd edirəm ki, mədəniyyət millətin həyat tərzində, "birgə yaşayış bacarığında" və ənənələrindədir. Odur ki, mədəni hüquqlar siyasi mifologiyanı, digər xalqın torpaqlarına və mədəni irsinə iddiaları rədd edir, etnik təmizləməni və assimilyasiya siyasətini, ksenofobiyanı, eyni zamanda, bir millətin "əzabkeşliyindən" irəli gələn "müstəsnalığını" və "xüsusi missiyasını", bunun nəticəsi kimi, onun mədəni müxtəlifliyinin absurd dərəcədə şişirdilməsini və "mədəni" relyativizm bəhanəsi ilə insan haqlarının pozulmasına bəraət qazandırılmasını qəbul edə bilməz.

Bununla yanaşı kitabxanada 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü ilə əlaqədar *"Oxu günü"* adlı **konfrans** da keçirilə bilər. Konfransdan əvvəl onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edərək qonaqların, tarixçilərin, siyasətçilərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi dəqiq vaxt məkan və zaman qeyd olunur. Konfrans zamanı Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü haqqında kitab və digər yazılar yazmış jurnalist, yazıçı və şairlərin, ədəbiyyat və tarix

müəllimlərinin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü yaranması və bayram olaraq qeyd edilməsi haqqında çıxış);
2. 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı, müəllim və tarixçilərin çıxışları;
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların dünya və Azərbaycan ədəbiyyatında əsərlər haqqında fikirləri;
4. Konfransın yekunu.

***Kitabxanaçı:*** 23 Aprel tarixinin dünya ədəbiyyatı üçün simvolik olmasını kitab dostları daha yaxşı bilir. 1995-ci ildə Parisdə keçirilən UNESCO-nun Baş Konfransında ədəbiyyat üçün simvolik olan 23 aprel Kitab və Müəlliflik Hüquqları Günü kimi təsdiqlənib. "Don Kixot" romanının ilk dəfə nəşr olunmasının 400 illiyi ilə əlaqədar keçirilən tədbir də həmin tarixə təsadüf etmişdir və beləliklə, 23 aprel əsl kitab bayramıdır!

Fəaliyyətə başladığı gündən klub və kitabxanalar mədəniyyət müəssisələri kimi insanların asudə vaxtının səmərəli keçməsində xüsusi rol oynayıb. Lakin sovetlər dönəmində klubla kitabxananın iş prinsipləri fərqli idi: klub yığıncaq və konsert, kitabxana isə oxucu auditoriyası kimi fəaliyyət göstərirdi.

***I iştirakçı:*** 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları, 26 aprel tarixinin isə Beynəlxalq Əqli Mülkiyyət Günü kimi ölkəmizdə də qeyd olunması artıq ənənəyə çevrilib. Bu münasibətlə hər il Müəllif Hüquqları Agentliyinin təşəbbüsü ilə silsilə tədbirlər keçirilir. Məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətinin təbliği, müəlliflik hüququnun mədəni irsin yaranmasında və qorunub saxlanmasındakı rolu,

davamlı iqtisadi inkişafda və informasiya texnologiyaları cəmiyyətinin formalaşmasında vacib amilə çevrildiyini diqqətə çatdırmaq, əqli mülkiyyətin yaradıcılarına dövlət qayğısını nümayiş etdirmək, mədəni irsin və adət-ənənələrimizin gələcək nəsillərə ötürülməsi işini günün tələbləri səviyyəsində qurmaqdır.

Müəllif-hüquq sisteminin və Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 23 ili tamam olur. Bu dövr ərzində respublikamızda əqli mülkiyyət, o cümlədən qeyri-maddi mədəni irsin qorunması sahəsində qanunvericilik, idarəçilik və məhkəmə sistemləri yaradılmış, müasir tələblər nəzərə alınmaqla onlar təkmilləşdirilib və beynəlxalq standartlara uyğunlaşdırılıb.

Son illər müəllif-hüquq sahəsi üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi prosesi uğurla davam etdirilir. “Əqli mülkiyyət hüquqlarının təminatı və piratlığa qarşı mübarizə haqqında” qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının İnzibati Xətalar, Cinayət və Cinayət Prosessual məcəllələrinə, “Nəşriyyat işi haqqında” qanuna və Müəllif Hüquqları Agentliyinin Əsasnaməsinə də müvafiq dəyişikliklər edilib, eləcə də müəllif-hüquq pozuntularına dair sanksiyalar sərtləşdirilib. Həmin qanunun icrasını təmin etmək məqsədilə 2013-cü ildə Nazirlər Kabineti tərəfindən 3 qərar qəbul olunub.

Xalqımızın ənənəvi mədəni nümunələrinin (folklor) və ənənəvi biliklərinin sistemli şəkildə öyrənilərək hüquqi şəkildə qorunması, erməni plagiatlığının ifşa edilməsi istiqamətlərində də ölkəmizdə bir sıra tədbirlər keçirilib.

Digər komponentlərlə yanaşı, əqli mülkiyyətin qorunmasını əks etdirən innovasiyalar göstəricisinə görə Azərbaycan dünyada 51-ci, MDB dövlətləri arasında birinci yeri tutur. Bununla yanaşı, böyük əhəmiyyət kəsb edən əqli mülkiyyət

sahəsinin 2014-2020-ci illərdə inkişafına dair Milli Strategiyanın müəlliflik hüququ hazırlanaraq, ictimai müzakirə üçün Müəllif Hüquqları Agentliyinin rəsmi saytında yerləşdirilib.

Beləliklə, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının icrası ilə bağlı qeyd olunan 3 prioritet istiqamət, yəni rəqəmli mühitdə hüquqların idarə edilməsi, onların təminatı və qeyri-maddi mədəni irsimizə daxil olan incilərimizin qorunması üzrə qarşıda mühüm vəzifələr durur və dövlət səviyyəsində bu məsələlər öz həllini tapmaqdadır ki, bunların da əksəriyyəti "rəqəmli hüquqlar"la bağlıdır.

Əqli mülkiyyətdən olan kitab zaman-zaman hər kəsin dostu olub. Kitabların yaratdığı ünsiyyəti, onların bağladığı ülfəti və verdiyi dərsi olduğu kimi dərk etmək hər gələn yeni nəslin mənəvi borcudur. Axı kitablar bizim dilimiz, elmimiz, birliyimiz-diriliyimizdir.

***II iştirakçı:*** Maraqlıdır, dünyada nə qədər kitab var? Statistik göstəricilərə görə dünyada 130 milyon adda kitab mövcuddur.

Modern.az-ın məlumatına görə, çəkisinə görə dünyanın ən ağır kitabı Londonda muzeydə saxlanılır. "Dünyanın coğrafi atlası" adlı bu kitabın hündürlüyü 1 metrdən artıqdır, çəkisi isə 320 kiloqramdır.

Dünyanın ən böyük kitabı isə "Dəniz qaydalarının toplusu" adlanır. Onun hündürlüyü insan boyundan uzundur, eni 1 metrdir, qalınlığı isə yarım metrdən çoxdur. Bu kitab Amsterdamda muzeydə saxlanılır.

Dünyada ölçüsünün kiçikliyinə görə 12 kitab mövcuddur. Onları birlikdə bir xörək qaşığına yerləşdirmək mümkündür. Bu kitabların sırasında müqəddəs kitabımız "Quran" da var.

Dünyanın ən kiçik kitablarından biri də 1899-cu ildə Varşava şəhərində hazırlanıb. Puşkinin 100 illik yubileyi şərəfinə hazırlanan "Yevgeni Onegin" kitabının ölçüləri 28x18

millimetrdir. Bu kiçik kitabın hər səhifəsinə 30 sətir yerləşdirilib. Kitab üçün xüsusi medalyon da hazırlayıblar.

Medalyonun içərisinə kitabla yanaşı onu oxumaq üçün kiçik linza da qoyulub.

Dünyanın ən böyük tirajlı kitabı "Bibliya" sayılır. Bibliyanın bu günə kimi 6 milyard nüsxəsi çap olunub.

Dünyanın ən bahalı kitabı Leonardo da Vinçinin "Lester kodeksi" sayılır. Qiyməti 30 milyondan bir az artıq dəyərləndirən bu kitab Bill Qeytsə məxsusdur.

Ən böyük lüğət kitabı sayılan "Alman lüğəti"nin hazırlanması 1854-cü ildən başlanıb, 1971-ci ildə tamamlanıb. Kitab 33 cilddən, 33519 səhifədən ibarətdir.

Ən böyük ensiklopediya kitabı isə "Universal Avro-Amerika ensiklopediyası"dır. 104 cilddən ibarət 105 min səhifəsi olan ensiklopediyada 165 milyon sözün izahı yerləşdirilib.

Qeyri-adi kitablardan biri Braziliyada saxlanılır. Rio de Janeiro şəhərinin 400 illik yubileyi münasibətilə buraxılan 200 səhifəlik xatirə kitabı paslanmayan poladdan hazırlanıb.

Haqqında ən çox kitab yazılan qəhrəmanlardan biri Napoleondur. Bu günə qədər görkəmli sərkərdə haqqında 10 mindən artıq müxtəlif kitablar yazılıb. Napoleon isə sürətli oxu tərzi ilə kitablara böyük maraq göstərib və o bir dəqiqə ərzində iki min söz oxuyurmuş.

Ən uzun adı olan kitab 1633-cü ildə Londonda nəşr olunub. Kitabın adı 45 sətirdən ibarət olub.

Kitab oğruları bibliokleptoman adlanır. Stiven Blumberq ən məşhur bibliokleptoman sayılır. O, 268 kitabxanadan 23 min kitab oğurlayıb. Stivenin şəxsi kitabxanasının dəyəri 20 milyondan artıq qiymətləndirilir.

Kitab oxumağa alışmaq, oxumağı daha yaxşı öyrənmək üçün ən yaxşı yaş dövrü 4-6 yaşdır.

Kitab oxuyanların 90 faizdən çoxu bir dəqiqəyə 210 söz oxuyur.

Sürətli oxu yavaş oxudan gözləri daha az yorur. Kitab oxuyanlar əsasən 17-18-ci səhifədə onun maraqlı olub olmamasını müəyyənləşdirirlər.

***III iştirakçı:*** Hazırkı dövrdə dünyada əsas kitab alıcıları 45 yaşdan yuxarı olan insanlardır. Statistik göstəricilərə görə qadınlar kişilərə nisbətdə daha çox kitab alırlar.

Yazdığı kitaba görə ən yüksək qonorarı yunan şairi Oppian alıb. Həmin kitabda onun balıqçılıq və ovçuluq haqqında iki poeması çap olunub. Roma imperatoru Mark Avreli hər sətir üçün müəllifə bir qızıl sikkə mükafat verib. Kitabdakı sətirlərin sayı isə iki mindən artıq olub.

Dünyanın ən böyük kitabxanası Vaşinqtonda yerləşən Amerika Birləşmiş Ştatları Konqresinin kitabxanasıdır. Bu kitabxanada 470 dildə 30 milyondan artıq kitab, milyondan artıq dünyanın müxtəlif ölkələrinin mətbu orqanları, 6 milyon əlyazması, 5 milyona yaxın xəritələr, 12 milyon şəkil və s. saxlanılır. İl ərzində kitabxanadan istifadə edənlərin sayı 2 milyona yaxındır. Kitabxanada 3600 nəfər çalışır.

Bu siyahını sonsuzadək uzatmaq olar buna görə də biz kitab oxumağın faydalılığı haqqında deyilmiş ən maraqlı kəlamları təqdim edirik:

1. Mükəmməl yazıçıların əsərlərini oxuya-oxuya mükəmməl nitqə sahib olmaq olar ( F.Volter ).
2. Mədəniyyət – oxunmuş kitabların kəmiyyəti deyil, mənasını, ideyasını anladığımız kitabların kəmiyyətidir (Fazil İsgəndər ).
3. Kitab oxuyan insanlar televizora baxan insanları hər zaman idarə edəcək ( F.Janlis ).
4. Çox oxuduqca az yamsılayırsan, özün olursan ( Jül Renar).
5. İnsanlar 2 kateqoriyaya bölünür: kitab oxuyanlar və kitab oxuyanları dinləyənlər ( Verber Bernard ).

6. Oxumağın təfəkkürə faydası fiziki hərəkətlərin bədənə olan faydasına bərabərdir ( Cozef Addison ).
7. Savadlı olmaq üçün 10 dənə kitabı oxumaq kifayət edər, amma həmin kitabları tapmaq üçün minlərlə kitab oxumaq lazımdır.
8. Kitablar- zaman dalğalarında üzən düşüncə gəmiləridir, hansı ki, dəyərləri nəsildən nəsilə ötürür ( Frensis Bekon ).
9. Unutmayın: təsəvvürləriniz oxuduqlarınızla müəyyən olunur.
10. Yaxşı kitab aysberqə bənzəyir. Böyük və əsas hissəsi ilk baxışdan görsənir ( Ernest Heminqvey ).
11. Yazıçılar ölməmişdən öncə minlərlə həyatı yaşayırlar. Kitab oxumayan insanlar isə yalnız 1 həyatı yaşayırlar (D.Martin )
12. Başqalarının ağıllı, hikmətli sözlərini oxuyarkən öz təfəkkürümüzdə də elə sözlər yaranmağa başlayır.
13. Mütaliyənin paradoksu: o, bizi reallıqla doldurmaq üçün reallıqdan uzaqlaşdırır ( D.Pennak ).
***IV iştirakçı:*** Kitab bilik mənbəyidir. Kitab oxumağın faydaları. Elə bir insan yoxdur ki, "kitabın xeyri nədir ?" sualına cavab verə bilməsin. Lakin çoxları bu sehrli əşyanın dəyərini bilmirlər.

Kitab insanın bəlkə də ən yaxın dostudur, əzizidir. Çox vaxt heç kimdən ala bilmədiyin məlumatları, sənə həyatda var olmaq üçün, düzgün yaşamaq və insanlarla münasibət qurmaq üçün lazım olan informasiyaları kitab verir. Hər bir insanın özünü dərk etdiyi gündən ilk dostu onun birinci kitabıdır.

Kitab oxumaq dünya görüşümüzü, həyata baxışımızı genişləndirir. Fərqli düşünüb, məsələləri fərqli metodlarla həll etməyi öyrənirik. Yeni fikirlər, məlumatlar qazanır, onları gündəlik həyatımızda da tətbiq edirik.

Fantaziyamız inkişaf edir. Yeni sözlər öyrənirik. Beləliklə, ədəbi dildə ünsiyyətin əsas şərtlərindən olan söz bazamız artır. Fikirlərimizi yazılı və şifahi olaraq daha yaxşı ifadə edə bilirik. Göz və beyin koordinasiyamız artır. Daha sürətli görüb, dərketmə bacarığına sahib oluruq.

***V iştirakçı:*** Azərbaycanda da mədəni irsin qorunmasına çox böyük önəm verilir. Bu, həm Prezident İlham Əliyev tərəfindən aparılan siyasətdə öz əksini tapır, eyni zamanda, Heydər Əliyev Fondunun fəaliyyətində müstəqil xətt kimi yürüdülür. Fondun və bilavasitə onun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü nəticəsində yeni kitablar nəşr edilir, qədim əlyazmalar bərpa olunur, tədris sistemində yeni vəsaitlər istehsala buraxılır. Bu da təsadüfi deyil, çünki Azərbaycan zəngin mədəniyyətə malikdir. Azərbaycan folkloru, bizim "Kitabi-Dədə Qorqud"umuz, "Xəmsə"miz, "Leyli və Məcnun"umuz və qədim zamanlardan bu günümüzə qədər digər kitablarımız çox böyük dəyər kəsb edir. Bu baxımdan onları bir tərəfdən ölkə xaricində təbliğ etməyi bacarmalı, digər tərəfdən bu kitabların müəllif hüquqlarının pozulmasına imkan verməməliyik. Təəssüflər olsun ki, bəzən bu haqların pozulması ilə üzləşirik. Buna bariz nümunə kimi, ermənilər tərəfindən işğal altında olan Azərbaycan torpaqlarında aparılan qeyri-konstruktiv özününküləşdirmə siyasətini göstərmək olar. Ermənilərin Azərbaycan folklor nümunələrini, müəllif əsərlərini və digər mədəni irs nümunələrini oğurlamaları uzun illərdir ki, davam edir. Əlbəttə, oğurlanmış mədəni dəyərlərin geri qaytarılması Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində təkcə ərazilərimizin 20 faizi yox, minlərlə qiymətli kitab və qədim əlyazmalarımız məhv olmuş, tarixi və mədəni abidələrimiz dağıdılmış, işğal edilmiş ərazilərdə qeyri-qanuni aparılmış

qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar ermənilər tərəfindən mənimsənilmişdir. UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası bu halların qarşısını almaq məqsədilə müxtəlif tədbirlər görür, bu faktları qurumun rəhbərliyinə təqdim edir, UNESCO kürsüsündən dünya ictimaiyyətinə çatdırır və deyə bilərəm ki, ermənilər tərəfindən aparılan bu cür təxribat xarakterli fəaliyyət çox hallarda dayandırılır. Bununla əlaqədar, Müəllif Hüquqları Agentliyinin fəaliyyətini və rolunu xüsusi qeyd etmək istəyirəm. Agentliyin UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə sıx əməkdaşlıq əlaqələri var və bu qurum bizə müxtəlif məlumatların toplanmasında, materialların verilməsində yaxından kömək göstərir.

*Tədbirin sonunda uşaqların oxuduqları kitablar müzakirə edilir.*

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi "Kitaqba məhəbbət və oxu mədəniyyəti" adlı **oxucularla söhbət** keçirilə bilər. Tədbirdə kitabxanaçının dəyərli məlumatlarından sonra iştirakçılar və oxucular 23 Aprel Ümumdünya Kitab və Müəlliflik hüquqları Günü ilə bağlı öz fikirlərini bildirirlər.

**Kitabxanaçı:** Kitab təkcə bilik mənbəyi deyil, həm də onu sevənlərin ürək dostu, könül sirdaşıdır. Kitabla ünsiyyətdə olanlar və ülfət bağlayanlar mənəviyyatlarının zənginliyi ilə digərlərindən seçilirlər. Bu gün kitabxanalarda vəziyyət tamamilə baqşqadır; nəinki Azərbaycan ədəbiyyatı, dünya xalqlarının kitab mədəniyyəti ilə maraqlanır və onların ədəbi-bədii çap məhsullarının oxucusuna çevrilirik. Bu işdə təbii ki, elektron kitabxanaların da rolunu danmaq olmaz. Bir sözlə, kitabın təbliğinə xüsusi önəm verilir. Azərbaycan yazıçı-şairlərinin əsərləri dünya nümunələri ilə paralel təbliğ

olunur ki, burada da marağa səbəb yeni müəlliflər və onların ədəbi-bədii əsərləridir.

Hərdən adama elə gəlir ki, küçədə aqressiv olmağımızın, səbirsizliyimizin, kriminal hadisələrin bu qədər geniş yayılmasının bir səbəbi də kitab oxumamağımızdır. Bəs ziyalılarımız bu barədə nə düşünürlər? Şair, tərcüməçi Səlim Babullaoğlunun mövzuya münasibəti belə oldu: "Kitabların öyrətdiyi üç vacib şey var. Birincisi, bu kitabın mahiyyəti ilə bağlıdır, məzmunuyla, bunu bilirik. İkincisi, kitablarda sözlər heç vaxt qışqırmır, hətta mübaribədən bəhs edən bir əsərdə top atılırsa və kitabda bundan bəhs edilirsə, bu, çox sakit baş verir, demək ki, kitab oxuma prosesi, mütaliə səbri və alicənablığı öyrədir, öyrətməlidir... Üçüncüsü isə, əgər fikir vermisinizsə, açılmış kitaba kənardan baxanda o qanad çalan, qanadlarını gərmiş quşa oxşayır, bu da elə belə deyil, çünki həqiqi kitablar xəyal gücünü gücləndirir, xəyal quşunu daim uçurdur. İnsanı ümidləndirir və həmdərd olmağı öyrədir. Sənə ən azı xəyalında və xəyalınla nəyisə dəyişmək öyrədir. Böyük polyak şairi Miloş yazırdı ki, vaxt vardı dərdə və bədbəxtliyə səbri öyrədən müdrik kitabları oxuyurdular yalnız. Düşünürəm o bunu elə belə yazmırdı. Kitab oxumayan adamlarda isə bu keyfiyyətlərin tam əksinə- aqressivliyə, nadanlığa rast gəlinir. Əlbəttə, bizim vərdiş etdiyimiz kimi kitab oxumayan adamlar da olub vaxtilə. Bu o vaxtlar idi ki, kitablar indiki kimi yayqın deyildi, kitab çapı işi də yox idi. Amma yenə də müdrik və alicənab adamlar vardı. Bu adamlar isə başqa kitabları oxuyurdular, səmavi kitabları oxuyurdular... Hərçənd oxumaq da müxtəlif cür olur. Mən düzgün kitabların düzgün oxusundan danışıram"...

Tanınmış jurnalist, "Kaspi" qəzetinin baş redaktoru Natiq Məmmədli: "Cəmiyyətin kitabdan ayrı düşməsi efirdən tutmuş adi ictimai nəqliyyatda davranışımıza qədər, hər şeydə özünü göstərir. Kitab oxumaq cəmiyyətin mədəni səviyyəsinin

barometridir. İnsanlar mənəviyyatlarını kitabla qidalandıra bilməyəndə mənəviyyat, düşüncə zəifləyir, müqavimət azalır. Kitaba ehtiyac hiss etməyən cəmiyyət yalnız geriyə gedə bilər”.

Qafqaz Universitetinin Regionşünaslıq bölməsinin müdiri dos. dr. Rövşən İbrahimov: “Kitabın rolu çox böyükdür. Çünki kitab dünya barəsində yığcam yol xəritəsidir. Üzdən belə, seçirəm oxuyan insanla oxumayan insanı. Oxuyan insan daha məntiqli, mənalı olur. Hazırda ailə və təhsil ocaqları öz üzərinə düşən vəzifəni tam yerinə yetirə bilmir, şəxsiyyət insan yetişdirməkdə ciddi nöqsanlar var. Buna görə də nəsillər boyunca yığılan məlumat və bilik toplusu - kitablar bu funksiyanı öz üzərinə götürə bilər. Kitab oxuma son illərdə yenidən populyarlaşır, amma kütləviləşməsi üçün hələ çox iş görülməlidir”.

İndi isə keçək kitabın insan üçün faydalarına. Söhbət o faydalardan gedir ki, artıq hər kəs tərəfindən qəbul olunur və öz təsdiqini çoxdan tapıb. Zənnimizcə, onları bir daha təqdim etməyimizdə fayda var...

- Kitab oxumaq insanı zənginləşdirir, mənən kamilləşdirir.
- Kitab oxumaq üçün bəlli bir zaman, bəlli bir göstərici yoxdur, yetər ki, səviyyəli bir şey tapıb oxuyasan. Hətta gündə bir səhifə də olsa, oxuyasan. Çünki bir səhifə ilə başlasan, tədricən ardı gələcək...
- Kitab oxumaq həyatı insana sevdirir.
- Kitab oxumaq insana həyatın fərqli yönlərini dərk etməyə kömək edir.
- Kitab oxumaq düşüncəni inkişaf etdirir.
- Kitab oxumaq stresin insana “sarılmasını” qarşısını alır.
- Kitab oxumaq zehni inkişaf etdirir, yorğunluqdan qurtarır.
- Kitab oxumaq insanın dünyaya baxışını dəyişir.

- Kitab oxumaq insana kitab adlı sədaqətli və etibarlı dost qazandırır.
- Kitab oxumaq sizi başqalarına sevdirər. Çünki kitab oxuyan adam mənən zənginləşdiyi üçün başqalarından fərqlənər...
- Kitab oxumaq sizin söz ehtiyatınızı artırar, fikirlərinizi daha səlis ifadə etməyinizə yardımçı olar...
- Kitab oxumaq insanın iş həyatındakı uğurları artırır.
- Kitab oxumaq xəyal gücünü genişləndirir.
- Kitab oxumaq insanın lazım olan anda daha dəqiq qərar vermək qabiliyyətini inkişaf etdirir.
- Kitab oxumaq insana yeni fikirlər, məlumatlar qazandırır.
- Kitab oxumaq sizə görmədiyiniz, tanımadığınız yerləri tanıdar.
- Kitab oxumaq sizin daha məntiqli düşünməyinizə imkan verər.

Yazımızın başlığında dediyimiz kimi, kitab oxuyaq ki, həyatı öyrənək...

23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü yubileyi ilə əlaqədar ***sual-cavab*** təşkil edilə bilər. Sual-cavab kitabxanaçı tərəfindən kitabxanada təşkil edilir. Kitabxanaçı 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü haqqında bir sıra əsaslı məlumatlar verir:

Kitabxanaçı qısa məlumatdan sonra şagirdlərə sual vərəqəsini paylayır. Sualları sizə təqdim edirik:

***1:*** Sizin üçün kitab nə deməkdir?

***Cavab:***Aqillər kitabı bilik, zəka, idrak mənbəyi, kamillik vasitəsi hesab edirlər.

**2:** Azərbaycan Respublikasında 23 Aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" neçənci ildən qeyd edilir?

**Cavab**: Azərbaycan Respublikasında 23 Aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" 1997-cı ildən qeyd olunur. 23 aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"

nün ölkəmizdə təntənəli şəkildə qeyd olunması artıq ənənəyə çevrilmişdir və bu münasibətlə hər il Müəllif Hüquqları Agentliyinin təşəbbüsü ilə silsilə tədbirlər təşkil edilir.

**3:** Kitablar harada saxlanılır?

***Cavab:*** Kitabxanalarda.

***4:*** Dünyanın ən böyük kitabxanası hansıdır və harada yerləşir? Bu haqda ətraflı məlumat verə bilərsinizmi?

***Cavab:*** Dünyanın ən böyük kitabxanası Vaşinqtonda yerləşən Amerika Birləşmiş Ştatları Konqresinin kitabxanasıdır. Bu kitabxanada 470 dildə 30 milyondan artıq kitab, milyondan artıq dünyanın müxtəlif ölkələrinin mətbu orqanları, 6 milyon əlyazması, 5 milyona yaxın xəritələr, 12 milyon şəkil və s. saxlanılır. il ərzində kitabxanadan istifadə edənlərin sayı 2 milyona yaxındır. Kitabxanada 3600 nəfər çalışır.

***5:*** 23 Aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" nün qəbul edilməsi ilk dəfə neçənci ildə və harada elan edilmişdir.

***Cavab:*** 23 Aprel – "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü". "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" YUNESCO-nun 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında elan edilmişdir.

***6:*** Ən çox oxuduğunuz kitab və ən bəyəndiyiniz müəllif kimdir?

***Cavab:*** ________________________________

***7:*** Kitab və Müəlliflik Hüquqları Günü niyə məhz 23 Aprel gününə təsadüf edir?

***Cavab:*** 23 Aprel tarixinin dünya ədəbiyyatı üçün simvolik olmasını kitab dostları daha yaxşı bilir. Həmin gün söz sənəti dahilərindən Şekspir, İnka Qarsilaso de la Veqa dünyasını dəyişib. Moris Droqon, X.Laksness, Vladimir Nabokov, Maniel Mexia Valeho kimi korifeylər isə aprelin 23-də

dünyaya göz açıblar. 1995-ci ildə Parisdə keçirilən UNESCO-nun Baş Konfransında ədəbiyyat üçün simvolik olan 23 Aprel Kitab və Müəlliflik Hüquqları Günü kimi təsdiqlənib. "Don Kixot" romanının ilk dəfə nəşr olunmasının 400 illiyi ilə əlaqədar keçirilən tədbir də həmin tarixə təsadüf etmişdir və beləliklə, 23 aprel əsl kitab bayramıdır!

***8:*** Nə üçün kitaba "böyük müəllimdir" deyilir? Sizin hansı kitablarınız var?

***Cavab:*** ______________________________________

*Tədbirin sonunda iştirakçılar kitabxanaçı tərəfindən müxtəlif adda kitablarla mükafatlandırılır.*

23 Aprel Ümumdünya Kitab və müəlliflik hüquqları Günü yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Bu dünyanın hər sirrini bizə deyir bu kitablar"* adlı **şeir müsabiqəsi** ola bilər. Kitabxanaçı öncə kitabla bağlı şeir kitablarını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. Mövzu ilə əlaqədar dəyərli və eyni zamanda qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır.

*Birinci iştirakçı Bəxtiyar Vahabzadənin "Kitab" adlı şeirini intonasiya ilə deyir.*

Kitab böyük müəllimdir,
Sinəsində min aləm var.
O səni bir insan kimi
Gah güldürər, gah ağladar.

Dili yoxdur, o danışır,
Hər bir şeydən xəbər verir.
Ata kimi sənə bəzən
Kitab doğru yol göstərir.

Bu dünyanın hər sirrini
Bizə deyir bu kitablar.
Ömrümüzün yollarına
Nur çiləyir bu kitablar.

*İkinci iştirakçı Həsən Mülkülünün “Kitab ” adlı şeirini söyləyir.*

...Qoca könlüm oldu fikir yorğunu,
Meydan açıb qurur min bir qurğunu.
Nizami, Füzuli, Səməd Vurğunu,
Hər gündə yadıma salandı kitab.

Hər insana, hər millətə gərəkdi,
Günəşdi, havadı, sudu, çörəkdi.
Yerlərə ləngərdi, göyə dirəkdi,
Sevən ürəklərə dolandı kitab…

*Üçüncü iştirakçı Mövlud Teymurun “Kitab” adlı şeiri ilə çıxış edir.*

Kitab öyrədir bizə
Bu dünyada hər şeyi.
Həvəslə çalışmağı,
Hünərlə işləməyi.
Bununçün da, uşaqlar
Sizdən bir xahişim var.
Mənim bu sözlərimi
Yaxşı düşünün, duyun:
Ancaq kitab oxuyun…
Ancaq kitab oxuyun!..

*Beləcə təxminən 10-12 iştirakçı növbə ilə əzbərlədikləri şeirləri söyləyirlər. Münsiflər heyəti şeir müsabiqəsi qaliblərini müəyyən edir, onlara diplom təqdim edilir. Həmçinin qaliblərə hədiyyə və müxtəlif adda şeir kitabları verilir.*

# Ədəbiyyat siyahısı


## *İnternetdə*

https://azertag.az/xeber/23_APREL___DUNYA_KITAB_VA_MUALLIF_HUQUQLARI_GUNUDUR-476054

https://news.day.az/society/484908.html

https://news.day.az/society/459654.html

https://ailetravel.net/kitab-oxumagin-faydalari-haqqinda-maraqli-k%C9%99lamlar/

https://www.ceylanmumoglu.com/news/kitab-haqqinda-deyilmis-gozel-sitatlar

# 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüquqları Günü

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 12
Çapa imzalanmışdır: 18.03.2020
Tirajı:100
Pulsuz